**SELEFLER.COM**

Quran və Sünnə Sələfin fəhmi ilə

# TÖVHİDDƏ cəhalətin üzr olması

**Müəllif: Rəşad Hümbətov**

**2014 © «Selefler.com» saytının redaksiyası tərəfindən hazırlanıb**

*Rəhmli və Mərhəmətli Allahın adı ilə*

Bu risalədə əqidə məsələlərində cəhalətin üzr olması haqqında, əhli-sünnənin böyük alimlərinin qövllərini zikr edəcəyik. Bu həmin alimlərdir ki, bütün islam ümməti onları sevərək qəbul etmiş, bidət əhli isə onları sevməyərək üz çevirmişdir.

Mövzuya keçməzdən öncə bir neçə məsələni qeyd edək.

**Təkfir etmək nə deməkdir?**

Ümumən bilmək lazımdır ki, təkfir məsələsi çox ciddi bir məsələdir. Yəni bir kəs İslam dininə daxil olduqdan sonra onu dindən çıxarmaq, çox mühüm bir işdir.
Bilirik ki, hər bir ibadətin özünə xas şərtləri mövcuddur. Məsələn, namazın öz şərtləri var, orucun öz şərtləri, zəkatın öz şərtləri, hətta evlənməyində özünə məxsus nigah şərtləri vardır. Bu şərtlər olmasa, həmin ibadət səhih sayılmaz. Və belə olduğu təqdirdə, bir müsəlmanı İslam dinindən çıxarmağın şərti olmazmı?

**Əlbəttə ki, olar və təkfirində öz şərtləri mövcuddur.**

Həmçinin bilirik ki, bir kəs İslam dininə daxil olduqdan sonra onu yalnız etdiyi şirk və küfr dindən çıxara bilər. Bu o deməkdir ki, bir kəs müsəlman ikən etdiyi asiliklərə, günahlara görə dindən çıxmaz. Bir müsəlmanı etdiyi günahdan dolayı İslam dinindən xaric edənlər, xəvariclərdir. Lakin Əhli-sünnə val Cəmə'a ittifaq etmişdir ki, bir müsəlman etdiyi günahı halal saymadığı təqdirdə, İslam dinindən xaric olmur.

Qeyd etdik ki, müsəlman yalnız etdiyi şirk və küfrdən dolayı İslam dinindən çıxır.

**İndi sual ortaya çıxır:** *"Hər şirk və ya küfr edən, İslam dinindən çıxırmı?"*

Cavab odur ki, bu əməli cəhaləti üzündən, yəni bilməməzlikdən edibsə İslam dinindən çıxmır. Çünki cəhalət üzrdür. Buradan aydın oldu ki, şirk və ya küfr edən müsəlmanın İslam dinindən çıxması üçün əsas şərtlərdən biri də bu əməli bilə-bilə etməsidir.

**İnd isə Tövhiddə cəhalətin üzr olması barədə Əhli-Sünnənin böyük alimlərinin görüşlərini zikr edək:**

**Muhəmməd ibn AbdulVahhəb**

O zaman ki, Şeyx Allaha şərik qoşmayanı təkfir etdiyinə görə iftira atdılar, Şeyx Muhəmməd ibn AbdulVahhəb (rahiməhullah) onlara cavab olaraq buyurdu:

وإذا كنا لا نكفر من عبد الصنم الذي على قبر عبد القادر ، والصنم الذي على قبر أحمد البدوي ، وأمثالهما ، لأجل جهلهم ، وعدم من ينبههم ، فكيف نكفّر من لا يشرك بالله
سبحانك هذا بهتان عظيم

*"Əgər biz AbdulQadir və Əhməd əl-Bədəvinin qəbirlərinin üzərində olan bütlərə ibadət edənləri, cahilliklərinə görə və onlara heç kimin tənbeh etməmələrinə görə təkfir etmiriksə, biz Allaha şərik qoşmayanı necə təkfir edə bilərik? Həqiqətən, bu çox böyük bir böhtandır."* (əd-Durarus-Səniyyə, 1/66)

Şeyxin bu sözlərindən aydın oldu ki, şirk edən kəsi dərhal təkfir etmək xətadır və yol verilməzdir. Çünki, həmin kəs cahil ola bilər, yəni bu əməlin şikr olduğundan xəbərsiz ola bilər. Bu səbəbdən həmin kəs təkfir olunmaz.

Başqa bir yerdə buyurur:

وقال رحمه الله :
وأما ما ذكر الأعداء عني أني أكفر بالظن وبالموالاة أو أكفر الجاهل الذي لم تقم عليه الحجة فهذا بهتان عظيم

*"O ki qaldı, düşmənlərimin mənim haqqımda "insanları zənnə və cahil olduqlarına görə təkfir edir" sözünə, bu həqiqətən açıq-aşkar bir böhtandır."* (Məcmuu Məlifət, 3/14)

**Diqqət edin!** Şeyx buyurur ki, cahilliyi üzr görmədiyimi və bu səbəblə bir başa təkfir etdiyimi iddia edənlər, mənim düşmənlərimdir.

Başqa bir yerdə buyurur:

بل نشهد الله على ما يعلمه من قلوبنا بأن من عمل بالتوحيد وتبرأ من الشرك وأهله فهو المسلم في أي زمان وأي مكان، وإنما نكفر من أشرك بالله في إلهيته بعدما نبين له الحجة على بطلان الشرك

*“Qəlbimizdə olanı bilən Allahı şahid tuturuq ki, bizim əqidəmiz budur ki, tövhidə əməl edən, şirkdən və onun əhlindən uzaq olan kəs məkanından və zamanından asılı olmayaraq müsəlmandır. Bir insan Allaha Uluhiyyət tövhidində şərik qoşsa, huccət qaldırıb, bəyan etdikdən sonra onu təkfir edirik.”* (Məcmuu Məlifət, 3/34)

**Diqqət edin!** Şeyx qeyd edir ki, Uluhiyyət tövhidində Allaha şərik qoşanı, yəni Allahı qoyub başqasına ibadət edəni huccət qaldırdıqdan sonra, yəni etdiyi əməlin şirk olduğunu bəyan etdikdən sonra onu təkfir edirik. Demək ki, huccət qaldırmadan öncə Muhəmməd ibn AbdulVahhəb (rahiməhullah) heç kəsi təkfir etməzdi.

Başqa bir yerdə buyurur:

وأما التكفير فأنا أكفر من عرف دين الرسول ثم بعد ما عرفه سبه ونهى الناس عنه وعادى من فعله فهذا الذي أكفره وأكثر الأمة ولله الحمد ليسوا كذلك

*“O ki, qaldı təkfir etməyə, mən o kəsi təkfir edirəm ki, o, Peyğəmbərin dinini bilir, fəqət onu söyür və insanları o yoldan çəkindirir, həmçinin ona əməl edənlərlə düşmənçilik edir. Mənim təkfir etdiyim də məhz budur.”* (‘Rəsəiluş-Şəxsiyyə’ kitabı)

Demək ki, bir kəs söydüyü Peyğəmbərin dini olduğunu bilməsə, bu halda o, cahilliyinə görə təkfir olunmur.

Başqa bir yerdə buyurur:

ولا نكفر إلا ما أجمع عليه العلماء كلهم وهو الشهادتان ، وأيضا نكفره بعد “
التعريف إذا عرف وأنكر ..وجاء
في آخره :“ وأما الكذب والبهتان، فمثل قولهم : إنا نكفر بالعموم،
وأيضا نكفره بعد التعريف إذا عرف وأنكر

*“Biz yalnız alimlərin ittifaq etdiyi məsələlərdə təkfir edirik ki, o da şəhadət kəlməsidir. (Yəni, bütün alimlər şəhadət kəlməsini söyləməyinin kafir olduğunda icma etmişdir). Huccət qaldırıb, bildirdikdən sonra inkar edəni təkfir edirik.”* (əd-Durarus-Səniyyə)

AbdulLətif ibn Abdurrahmən ibn Həsən Əli Şeyx buyurur:

والشيخ محمد رحمه الله من أعظم الناس توقفاً وإحجاماً عن إطلاق الكفر حتى إنه لم يجزم بتكفير الجاهل الذي يدعو غير الله من أهل القبور أو غيرهم إذا لم يتيسر له من ينصحه ويبلغه الحجة التي يكفر تاركها

*"Şeyx Muhəmməb İbn AbdulVahhəb (rahiməhullah) insanlar içində kimisə mütləq təkfir etməkdə ən ehtiyatlı davranan idi. Hətta Muhəmməd ibn AbdulVahhəb Allah qeyrisini çağıran cahili və ya başqalarını, onlara huccət qaldırmadığından təkfir etməzdi."* (Minhəcut-Təsis va Təqdis, 98-99)

Yəni şeyx, Allahdan qeyrisini çağıranları cahil olduqlarına görə təkfir etməzdi.

Bilirik ki, Qurani Kərimdə mənası aydın olmayan ayələr mövcuddur. Necə ki, Uca Allah buyurur:

هُوَ الَّذِي أَنْزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاءَ الْفِتْنَةِ وَابْتِغَاءَ تَأْوِيلِهِ

**-Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayan ayələrin ardınca düşərlər.**

Bu ayə dəlildir ki Quranda mənası aydın olmayan ayələr var. Yəni, kiməsə aydın olmayan ayələr mövcuddur, fəqət elə kəslər var ki, Quran bütünlüklə onlara aydındır. Necə ki, mutəşəbih ayələr yalnız elmdə güclü olanlara məlumdur. Yəni, mutəşəbih ayələri muhkəm ayələrə qaytarmaqla onların mənasını anlayırlar.
Eləcə də, Rasulullahın (sallAllahu aleyhi və səlləm) sözlərinin də bəziləri muhkəm, bəziləri isə mutəşəbihdir. Hədisləri düzgün anlamaq üçün, mutəşəbih olan sözlər muhkəm olan sözlərə qaytarılır.

Həmçinin bu qayda alimlərin sözlərində də mövcuddur. Yəni, alimlərim mutəşəbih və muhkəm sözləri mövcuddur. Qəlbində xəstəlik olanlar, elmsiz ikən ancaq mutəşəbih sözləri götürüb, muhkəm sözləri tərk etmişlər. Bu kəslər Allahın xeyrindən məhrum olanlardır. Allahu təalə onlara xeyirli əməlləri unutdurmuş və onları özlərinə aid olmayan məsələlərlə məşğul etmişdir. Şübhəsiz ki, Allah heç kimə zülm etmir, onlar öz-özlərinə zülm edirlər.

Şeyxul İsləm İbn Teymiyyə məşhur hədisi şərh edərkən, bu o hədisdir ki, bir kişi belə vəsiyyət edir, öldükdə məni yandırın, külümü dağlara səpələyin ki, Allah məni dirildə bilməsin!- Şeyxul İsləm hədisi şərh edərkən buyurur:

فَهَذَا رَجُلٌ شَكَّ فِي قُدْرَةِ اللَّهِ وَفِي إعَادَتِهِ إذَا ذُرِّيَ ، بَلْ اعْتَقَدَ أَنَّهُ لَا يُعَادُ ، وَهَذَا كُفْرٌ بِاتِّفَاقِ الْمُسْلِمِينَ ، لَكِنْ كَانَ جَاهِلًا لَا يَعْلَمُ ذَلِكَ وَكَانَ مُؤْمِنًا يَخَافُ اللَّهَ أَنْ يُعَاقِبَهُ فَغَفَرَ لَهُ بِذَلِكَ

*"Bu kişi Allahın qüdrətində şəkk etmişdir. Hətta etiqad edirdi ki, belə olunsa bir daha Allah onu diriltdə bilməyəcəkdir. Bu söz və bu cür etiqad bütün müsəlmanların etiqadına görə küfrdür. Lakin o insan cahil idi, eyni zamanda da mömin idi. Qəlbində Allahdan qorxusu vardı və bu səbəbdən Allah onu bağışladı."* (Məcmuul-Fətava, 3/231)

Başqa bir yerdə buyurur:

نعلم بالضرورة انه لم يشرع لأمته أن تدعو أحدا من الأموات لا الأنبياء ولا الصالحين ولا غيرهم

1- Yəqin olaraq bilirik ki, Peyğəmbərin (sallAllahu aleyhi və səlləm) ümmətinə, istər ölü, istər saleh, istərsə də nəbi olsun (fərq etməz) Allahdan qeyrisini çağırmaq buyurulmamışdır.

كما أنه لم يشرع لأمته السجود لميت ولا لغير ميت ونحو ذلك

2- Həmçinin bilirik ki, Peyğəmbərin (sallAllahu aleyhi və səlləm) ümmətinə ölüyə və ölü olmayana səcdə etmək də buyurulmamışdır.

بل نعلم أنه نهى عن كل هذه الأمور وأن ذلك من الشرك الذي حرمه الله تعالى ورسوله لكن لغلبة الجهل وقلة العلم بآثار الرسالة في كثير من المتأخرين لم يكن تكفيرهم بذلك حتى يتبين لهم ما جاء به الرسول صلى الله عليه و سلم مما يخالفه

3- Həmçinin bilirik ki, Peyğəmbər (sallAllahu aleyhi və səlləm) bütün bunları bizə qadağan etmişdir və bilirik ki, bu Allah və Rəsulunun haram etdiyi şirkdir, lakin cahilliyin çoxluğundan və elmin azlığından biz indikilərə huccət qaldırmadan, onları təkfir edə bilmirik. ('İstiğasə' kitabı)

Bu, Şeyxul İslamın muhkəm sözlərindəndir.

Başqa bir yerdə buyurur:

ولهذا كنت أقول للجهمية من الحلولية و النفاة الذين نفوا أن الله تعالى فوق العرش أنا لو وافقتكم كنت
كافرا لأني أعلم أن قولكم كفر و أنتم عندي لا تكفرون لأنكم جهال

*- Ona görədə mən hülulilərdən olan cəhmilərə, həmçinin Allahın ərşdə olmasını inkar edənlərə deyirəm ki, əgər mən siz deyən kimi desəydim kafir olardım. Çünki mən bilirəm ki, sizin dediyiniz söz küfrdür. Amma mən sizi cahil olduğunuz üçün təkfir etmirəm.* ('İstiğasə' kitabı)

Başqa bir yerdə buyurur:

وبينا أن المؤمن الذي لا ريب في إيمانه قد يخطئ في بعض الأمور العلمية الاعتقادية فيغفر له كما يغفر له ما يخطئ فيه من الأمور العملية، وأن حكم الوعيد على الكفر لا يثبت في حق الشخص المعين حتى تقوم عليه حجة الله التي بعث بها رسله، كما قال تعالى:
{وما كنا معذبين حتى نبعث رسولا}

*- Biz bəyan etdik ki, imanında şəkk-şübhə olmayan-mömin insan, bəzi hallarda etiqadi məsələlərdə xətaya yol verir və qeyri etiqadi məsələlər də bağışlandığı kimi, onun bu xətası da bağışlanır. Çünki bir şəxsi təkfir etmək üçün mütləq ona hüccət qalxmalıdır, çünki Allah təala buyurur ki:* **"Biz elçi göndərməmiş əzab vermərik"** ('Fəlsəfəçilərə rədd' kitabı 1/ 311)

Şeyxul İslam İbn Teymiyyədən şəriət əhkamlarının üzərindən qalxdığını iddia edənlər haqda soruşduqda, o belə cavab verir:

وقد سئل عمن يزعم سقوط التكاليف الشرعية عنه :" لا ريب عند أهل العلم والإيمان أن هذا القول من أعظم الكفر وأغلظه . وهو شر من قول اليهود والنصارى
لَكِنْ مِنْ النَّاسِ مَنْ يَكُونُ جَاهِلًا بِبَعْضِ هَذِهِ الْأَحْكَامِ جَهْلًا يُعْذَرُ بِهِ فَلَا يُحْكَمُ بِكُفْرِ أَحَدٍ حَتَّى تَقُومَ عَلَيْهِ الْحُجَّةُ بلاغ الرسالة كما قال تعالى : {وما كنا معذبين حتى نبعث رسولا} "

*-Şübhəsiz ki, elm və iman əhli bilir ki, bu söz ən böyük küfr və dəhşətli bir sözdür. Hətta yəhudi və nəsranilərin sözündən də pisdir. Lakin elə insanlar vardır ki, bəzi əhkamlardan qafildirlər və bu cahillikləri onları üzrlü edir.*

*Ona görə də heç kəs ona huccət qalxmayınca təkfir olunmur. Necə ki, Allah təala buyurur:* **“Biz elçi göndərməmiş əzab vermərik”** (Məcmuul-Fətava, 11/401)

Başqa bir yerdə buyurur:

فَإِنَّ مَنْ جَحَدَ شَيْئًا مِنْ الشَّرَائِعِ الظَّاهِرَةِ وَكَانَ حَدِيثَ الْعَهْدِ بِالْإِسْلَامِ أَوْ نَاشِئًا بِبَلَدِ جَهْلٍ لَا يَكْفُرُ حَتَّى تَبْلُغَهُ الْحُجَّةُ النَّبَوِيَّةُ .

*-Kim İslam dininə yeni gəldiyi üçün yaxud cahillik olan bir ölkə və ya şəhərdə şəriətdə açıq aydın bilinən bir şeyi inkar etsə, huccət qaldırmamış onu təkfir etmək olmaz.* (Fətava, 6/61)

Başqa bir yerdə buyurur:

ومن أنكر ما ثبت بالتواتر والإجماع فهو كافر بعد قيام الحجة عليه

*-Kim mütəvatir və icma olan məsələləri inkar etsə, hüccət qalxdıqdan sonra kafirdir.* (‘İstiğasə’ kitabı)

Yəni icma olan məsələləri inkar etsə yalnız və yalnız hüccətdən sonra kafir olur.

Başqa bir yerdə buyurur:

فإن تكفير الشخص المعين و جواز قتله موقوف على أن تبلغه الحجة النبوية التي يكفر من خالفها و إلا فليس كل من جهل شيئا من الدين يكفر

*-Müəyyən bir kəsi təkfir etmək ona huccət qaldırmağa bağlıdır. Əks halda, hər dində cahil olan təkfir olunmur!* (‘İstiğasə’ kitabı)

İmam Şafi buyurur:

فإن خالف ذلك بعد ثبوت الحجة عليه فهو كافر

*-Kim Allahın ad və sifətlərini hüccət qalxdıqdan sonra inkar etsə kafirdir.*

أما قبل ثبوت الحجة عليه فمعذور بالجهل لأن علم ذلك لا يدرك بالعقل ولا بالرؤية والفكر ولا يكفر بالجهل بها أحد إلا بعد انتهاء الخبر إليه

*-Amma hüccət qalxmamışdan qabaq, cahilliyinə görə üzrlüdür. Çünki bunları əql ilə, yuxu ilə və kimsənin fikri ilə bilmək mümkün deyildir.*('İctimaul-Cuyuş' kitabı)

İbnul Qeyyim (rahiməhullah) buyurur:

*- İnkar etmək küfrü iki növdür:*

*I- Mütləq küfr, yəni ümumi küfr.*
*II- Qeydli küfr, yəni xas olan küfr.*

*I- Küfrə misal: Ümumi şəkildə Allahın endirdiyini inkar etmək.*

*II- Küfrə misal: Xüsusi şeyləri inkar etmək, məs, İslamda fərz olan şeylərinin birini inkar etmək, yaxud hər hansısa haramlardan birini inkar etmək, yaxud Allahın özünə vəsf etdiyi sifətlərdən birini inkar etmək, yaxud bilərəkdən Allahın xəbər verdiyi bir məsələni inkar etmək.*

*Lakin bunları cahilliyindən dolayı edən və ya təvil edərək inkar edən üzrlüdür. Yəni bunları edən insan təkfir olunmur, necə ki, hədisdə keçək kişi Allahın qüdrətini inkar etdiyinə görə kafir olmadı.* ('Mədəricu-Salikin' kitabı)

Şeyx Useymindən soruşurlar:

- İnsan əqidə məsələlərində üzrlü ola bilərmi?

Şeyx cavab verir:

*- Cahilliyin üzrlü olması dinin bütün məsələlərində vardır. (Yəni istər əqidə məsələsi olsun istər digər məsələlər) Çünki Allah təala buyurur:* **"Biz elçi göndərməmiş heç kəsə əzab vermirdik."** (İsra, 15)

**-Allah bir qövmü doğru yola yönəltdikdən sonrauzaqlaşmaları zəruri olan şeylərdən onları xəbərdar etməyincə onları həmin yoldan azdırmaz. Həqiqətən, Allah hər şeyi bilir.** (Tövbə, 115).

والنصوص في هذا كثيرة ، فمن كان جاهلاً : فإنه لا يؤاخذ بجهله في أي شيء كان من أمور الدين

*Bu barədə Quran və sünnədə dəlillər çoxdur, dəlillər bildirir ki, cahil olan insan cahilliyinə görə dinin hansı məsələsində olursa olsun məsuliyyət daşımır.* (Fətava, 2/128)

Sonra yenə Şeyxdən soruşurlar:

ما حكم من يصف الذين يعذرون بالجهل بأنهم دخلوا مع المرجئة في مذهبهم ؟

Bəzi insanlar deyirlər ki, cahillikdə üzr görənlər murciə məzhəbinə daxil olanlardır buna necə baxırsınız?

Şeyx cavab verir və buyurur:

فأجاب :
وأما العذر بالجهل : فهذا مقتضى عموم النصوص

-n*Cahilliyin üzrlü olması Quran və Sünnədən götürülmüşdür*

ولا يستطيع أحد أن يأتي بدليل يدل على أن الإنسان لا يعذر بالجهل ، قال الله تعالى : ( وَمَا كُنَّا مُعَذِّبِينَ حَتَّى نَبْعَثَ رَسُولاً ) الإسراء/ 15 ، وقال تعالى : ( رُسُلاً مُبَشِّرِينَ وَمُنْذِرِينَ لِئَلَّا يَكُونَ لِلنَّاسِ عَلَى اللَّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ ) النساء/ 165 ،

*Bir nəfər dəlil gətirə bilməz ki insan cahilliyinə görə üzrlü deyildir. Çünki Allah təala buyurur:*

*Biz müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın.*

Və sonra buyurur:

ولولا العذر بالجهل : لم يكن للرسل فائدة

*Əgər cahillik üzr olmasa idi, Rəsulların göndərilməsində heç bir fayda olmazdı*

Və sonra buyurur:

فالعذر بالجهل هو مقتضى أدلة الكتاب والسنة

*Quran və sünnənin dəlilləri tələb edir ki insanın cahilliyi üzrlüdür.*

Və sonra buyurur:

وقد نص على ذلك أئمة أهل العلم : كشيخ الإسلام ابن تيمية رحمه الله، وشيخ الإسلام محمد بن عبد الوهاب رحمه الله ،

*Bunu artıq bizdən qabaq alimlər bildirmişlər, İbn Teymiyyə kimi, Muhamməd ibn AbdulVahhab kimi.* (Liqaət əl-bəb əl-məftuh, Rəqəm-33/Sual 12, Hukmul murciə va mən yuzəru bi cəhlihi.)

Şeyx Rabi buyurur:

- *Sələfilər- ən başda İbn Teymiyyə olmaqla, buyururlar ki, əqidə məsələrində insan cahil olsa üzrlüdür. Əhli-Sünnədə üstün rəy odur ki, cahil insana huccət qalxana kimi, o üzrlüdür.* ("Fətava fil aqiydə val mənhəc halqa bir").

Şübhə əhlinin batil iddialarından da budur ki, cəhalət yalnız fiqhi məsələlərdə üzrlüdür, əqidə məsələlərdə üzrlü deyil. Təbii ki, bu sadəcə atılan bir şübhədir. Bu şübhəyə Şeyxul İsləm İbn Teymiyyənin sözü ilə son qoyuram:

- *Bu cür təfriqə varmağın, dini məsələri bu cür bölməyin əsli yoxdur. Bu nə səhabələrdən, nə tabiinlərdən, nə də ki, imamlardan gəlməmişdir. Bu mötəzilə əqidəsindən götürülmüş bir şeydir.* (Məcmuul-Fətava, 23/346)

**Müəllif:** Rəşad Hümbətov

Sonda Həmd olsun aləmlərin Rəbbi Allaha!